| | |
|---|---|
| ***9 yanvar 2018*** | Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışında iştirak etmiş, kompleksdə görülən işlərlə tanış olmuşdur. |
| ***10 yanvar 2018*** | Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda nitq söyləmişdir.<br><br>Gürcüstanın Azərbaycan Respublikasında ilk fövqəladə və səlahiyyətli səfiri Giorgi Çanturianın vaxtsız vəfatı ilə əlaqədar mərhumun ailəsinə başsağlığı vermişdir. |
| ***15 yanvar 2018*** | Ölkəmizdə işgüzar səfərdə olan Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə təkbətək görüşü olmuşdur.<br><br>Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə geniş tərkibdə görüşü olmuşdur.<br><br>Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir. |
| ***16 yanvar 2018*** | Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin rəhbəri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***17 yanvar 2018*** | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyalarının açılışında iştirak etmişdir. |
| ***20 yanvar 2018*** | Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişdir. |
| ***22-23 yanvar 2018*** | **Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasında işgüzar səfərdə olmuşdur.**<br><br>***22 yanvar 2018***<br>Davosda ABŞ-ın "Black Rock" şirkətinin təsisçisi, müşahidə şurasının sədri və icraçı direktoru Lourens Fink ilə görüşü olmuşdur.<br><br>Davosda Rusiyanın "LUKOİL" şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşü olmuşdur.<br><br>Davosda "Chevron" şirkətinin korporativ biznes inkişafı üzrə vitse-prezidenti Cey Prayer ilə görüşü olmuşdur.<br><br>Davosda "Royal Phillips" şirkətinin baş icraçı direktoru Frans van Houten ilə görüşü olmuşdur.<br><br>Davosda "Mastercard" şirkətinin idarə heyətinin üzvü Tim Mörfi ilə görüşü olmuşdur.<br><br>Davosda "CISCO" şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer ilə görüşü olmuşdur.<br><br>Davosda Dünya İqtisadi Forumunun prezidenti Börge Brend ilə görüşü olmuşdur.<br><br>***23 yanvar 2018***<br>Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşü olmuşdur.<br><br>Davosda Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşü olmuşdur. |

| | |
|---|---|
| | Davosda "VTB Bank"ın prezidenti, idarə heyətinin sədri Andrey Kostin ilə görüşü olmuşdur.<br><br>Davosda "SUEZ GROUP" şirkətinin baş icraçı vitse-prezidenti və "MEDEF International"ın Fransa-Azərbaycan Biznes Şurasının sədri xanım Marie-Ange Debon ilə görüşü olmuşdur.<br><br>Davosda "Microsoft" şirkətinin vitse-prezidenti, Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Mişel Van Der Bel ilə görüşü olmuşdur.<br><br>Davosda Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xəlid Əl Falih ilə görüşü olmuşdur.<br><br>Davosda "Lazzard Freres" şirkətinin sədri və baş icraçı direktoru Metyu Piqas ilə görüşü olmuşdur.<br><br>Davosda ABŞ-ın "Blackstone" şirkətinin həmtəsisçisi və icraçı direktoru Stiven Şvarzman ilə görüşü olmuşdur.<br><br>Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda iştirak etmişdir.<br><br>***24 yanvar 2018***<br>Davosda "IBM" şirkətinin baş icraçı direktoru xanım Cinni Rometti ilə görüşü olmuşdur.<br><br>Davosda ABŞ-ın "Carlyle Group" şirkətinin həmtəsisçisi və icraçı direktoru Devid Rubinşteyn ilə görüşü olmuşdur.<br><br>Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşü olmuşdur.<br><br>Davosda "bp" şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşü olmuşdur.<br><br>Davosda İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə görüşü olmuşdur.<br><br>Davosda "Statoil" şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşü olmuşdur.<br><br>Davosda İsveçrə Konfederasiyasının Prezidenti Alain Berset ilə görüşü olmuşdur.<br><br>Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı" adlı sessiyasında iştirak etmişdir. |
| ***29 yanvar 2018*** | Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda nitq söyləmişdir.<br><br>Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololeyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***30 yanvar 2018*** | Qusarda "Şahdağ" qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olmuşdur. |
| ***1 fevral 2018*** | Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |

| | |
|---|---|
| | "Smart Africa" Təşəbbüsünün icraçı direktoru Hamadoun Toureni qəbul etmişdir. |
| *5 fevral 2018* | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayında iştirak edən beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul etmişdir. |
| *6 fevral 2018* | Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonu qəbul etmişdir.<br><br>ABŞ Dövlət katibi müavininin müşaviri xanım Bricet Brinki qəbul etmişdir. |
| *7 fevral 2018* | ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir. |
| *8 fevral 2018* | Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının VI qurultayında nitq söyləmişdir.<br><br>Yeni Azərbaycan Partiyasının VI qurultayı 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində namizədliyini irəli sürmüşdür.<br><br>Fransanın "Thales International" şirkətinin birinci vitse-prezidenti Rafael Eskinazini qəbul etmişdir. |
| *9 fevral 2018* | Bakıda, futbol üzrə dünya çempionatı Kubokunun əsli əfsanəvi futbolçu Kristian Karambo tərəfindən Dövlət başçısına təqdim olunmuşdur.<br><br>Yeni Azərbaycan Partiyasının VI qurultayında nitq söyləmişdir. |
| *10 fevral 2018* | Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| *13 fevral 2018* | Formula-1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul etmişdir.<br><br>Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxelenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| *14 fevral 2018* | ABŞ Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi vəzifəsini icra edən xanım Syu Saarnionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi xanım Baronessa Emma Nikolsonu qəbul etmişdir. |
| *15 fevral 2018* | Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında nitq söyləmişdir.<br><br>Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç ilə görüşü olmuşdur.<br><br>Türkiyənin energetika və təbii sərvətlər naziri ilə görüşü olmuşdur.<br><br>Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri |

| | |
|---|---|
| | Kumsişvili ilə görüşü olmuşdur.<br><br>İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarotto ilə görüşü olmuşdur.<br><br>Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin dördüncü toplantısında nitq söyləmişdir. |
| ***19 fevral 2018*** | Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***21 fevral 2018*** | Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Azərbaycan-Niderland Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul etmişdir.<br><br>İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əmir Hatəminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***22 fevral 2018*** | Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərova “İstiqlal” ordenini təqdim etmişdir. |
| ***23 fevral 2018*** | “Boeing Commmercial Airplanes” şirkətinin prezidenti və baş icraçı direktoru Kevin Mak Alisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***25 fevral 2018*** | Amerika Yəhudi Komitəsinin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***26 fevral 2018*** | Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak etmişdir.<br><br>“Rossiya-24” telekanalının müxbirinə müsahibə vermişdir. |
| ***27 fevral 2018*** | Mingəçevir şəhərinə səfər etmişdir.<br><br>Mingəçevirdə ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etmişdir.<br><br>Mingəçevirdə Su Elektrik Stansiyasının əsaslı yenidənqurmadan sonra istismara verilməsi mərasimində iştirak etmişdir.<br><br>Mingəçevir şəhərinin içməli su təchizatı sisteminin istismara verilməsi mərasimində iştirak etmişdir.<br><br>Mingəçevirdə elektrik paylayıcı şəbəkəsinin Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin açılışında iştirak etmişdir.<br><br>Mingəçevir-Bəhramtəpə avtomobil yolunun əsaslı şəkildə yenidən qurulan 26 kilometrlik Aran-Qarağacı hissəsinin açılışında iştirak etmişdir.<br><br>Mingəçevir Sənaye Parkında “Mingəçevir Tekstil” MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin açılışında iştirak etmişdir.<br><br>Mingəçevirdə "ASAN Həyat" kompleksinin açılışında iştirak etmişdir.<br><br>Mingəçevir şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitq söyləmişdir. |

| | |
|---|---|
| ***2 mart 2018*** | Yanğın baş verən Respublika Narkoloji Mərkəzinə gələrək vəziyyətlə tanış olmuşdur. |
| ***5 mart 2018*** | Mərakeş Krallığının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Nasser Bouritanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***7 mart 2018*** | Dövlət Statistika Komitəsinin Bakı Şəhər Statistika İdarəsinin yeni inzibati binasının açılışında iştirak etmişdir. |
| ***8 mart 2018*** | Yaponiya Baş nazirinin xarici siyasət məsələləri üzrə müşaviri Tomohiko Taniguçini qəbul etmişdir. |
| ***9 mart 2018*** | Gürcüstanın müdafiə naziri Levan İzorianı qəbul etmişdir. |
| ***12 mart 2018*** | ATƏT Parlament Assambleyasının sədri Georgi Tseretelinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşü olmuşdur. |
| ***13 mart 2018*** | Monteneqro parlamentinin sədri İvan Brayoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Rumıniyanın Baş nazirinin müavini xanım Ana Birçallı qəbul etmişdir. |
| ***14 mart 2018*** | Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə görüşü olmuşdur.<br><br>VI Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir. |
| ***15 mart 2018*** | “İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması” mövzusunda VI Qlobal Bakı Forumun açılış mərasimində iştirak etmişdir.<br><br>Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəliyə “Dostluq” ordenini təqdim etmişdir.<br><br>Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşü olmuşdur.<br><br>Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç ilə görüşü olmuşdur.<br><br>İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Makedoniya Respublikasının Prezidenti George İvanov ilə görüşü olmuşdur.<br><br>Moldova Respublikasının Prezidenti İqor Dodonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>VI Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak etmişdir. |
| ***16 mart 2018*** | Paraqvay Respublikası Senatının sədri Fernando Luqo Mendezi qəbul etmişdir. |

| | |
|---|---|
| ***18 mart 2018*** | Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşü olmuşdur. |
| ***19 mart 2018*** | Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyində iştirak etmişdir. |
| ***25 mart 2018*** | Bərdə rayonuna səfər etmişdir.<br><br>Bərdədə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir.<br><br>Bərdə rayonunun Cəyirli kəndinin ərazisində fermer Musa Quliyevin 20 hektarlıq pambıq tarlası ilə tanış olmuşdur.<br><br>Bərdə türbəsində və Torpaqqala kompleksində əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.<br><br>Bərdəyə səfəri çərçivəsində yeni Daşkənd-Umudalılar avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir. |
| ***26 mart 2018*** | Bərdədəki Mədəniyyət Mərkəzində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində nitq söyləmişdir. |
| ***27 mart 2018*** | Bakının Nizami rayonu ərazisində Bona Dea Beynəlxalq Hospitalının açılışında iştirak etmişdir. |
| ***28 mart 2018*** | Azərbaycana rəsmi səfər edən İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə təkbətək görüşü olmuşdur.<br><br>İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə geniş tərkibdə görüşü olmuşdur.<br><br>İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə birgə mətbuata bəyanatlarla çıxış etmişdir.<br><br>İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin şərəfinə verilən rəsmi qəbulda iştirak etmişdir. |
| ***29 mart 2018*** | Heydər Əliyev Mərkəzində İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə birgə Azərbaycan-İran biznes forumunda nitq söyləmişdir.<br><br>Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonierin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***30 mart 2018*** | ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbəri xanım Korin Yonkeri qəbul etmişdir. |
| ***2 aprel 2018*** | Belarus Respublikasının Baş nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***3 aprel 2018*** | Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |

| | |
|---|---|
| | Ekvador Respublikasının xarici işlər naziri xanım Maria Fernanda Espinosa Qarsesi qəbul etmişdir. |
| ***4 aprel 2018*** | Fələstin Dövlətinin xarici işlər naziri Riad Malkini qəbul etmişdir.<br><br>İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momanini qəbul etmişdir.<br><br>Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilini qəbul etmişdir.<br><br>Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Hindistan Respublikasının xarici işlər naziri xanım Suşma Svaracın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***5 aprel 2018*** | Bakı Konqres Mərkəzində “Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi” mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimində iştirak etmişdir.<br><br>Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Pradip Kumar Qyavalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Xorxe Arreasa Monserratın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Koreya Xalq Demokratik Respublikasının xarici işlər naziri Ri Yon-honun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçakı qəbul etmişdir.<br><br>Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibə vermişdir. |
| ***6 aprel 2018*** | Bakı Ekspo Mərkəzində “AITF-2018” XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ilə tanış olmuşdur. |
| ***9 aprel 2018*** | Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda nitq söyləmişdir. |
| ***11 aprel 2018*** | Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində prezident seçkilərində səs vermişdir. |
| ***12 aprel 2018*** | Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışında iştirak etmişdir.<br><br>Avstraliya Parlamentinin nümayəndələr palatasının deputatı, Avstraliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun üzvü Stiv Georganasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |

| | |
|---|---|
| | Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Əlimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>MDB-dən seçkilərdə müşahidəçilər missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.<br><br>Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario Davidi qəbul etmişdir.<br><br>Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri Necdet Ünüvarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Avropa Parlamentində Avropa Mühafizəkarlar və Reformistlər Qrupunun Azərbaycanda seçki müşahidə missiyasının rəhbəri Kozma Zlotovskini qəbul etmişdir.<br><br>Prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə Bakıda konsertdə ailə üzvləri ilə birlikdə iştirak etmişdir. |
| ***16 aprel 2018*** | Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevi yubileyi münasibətilə təbrik etmiş, və Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə və elmin inkişafında böyük xidmətlərinə görə “Şöhrət” ordeni ilə təltif etmişdir. |
| ***18 aprel 2018*** | Milli Məclisdə Azərbaycan Respublikasının Prezidenti seçilməyi münasibətilə andiçmə mərasimində nitq söyləmişdir.<br><br>Ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmişdir.<br><br>Ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət etmişdir.<br><br>Ailə üzvləri ilə birlikdə Dövlət Bayrağı Meydanında olmuşdur.<br><br>Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşü olmuşdur.<br><br>Türkiyə Respublikasının gənclik və idman naziri Osman Aşkın Bakı və Bilal Ərdoğanı qəbul etmişdir.<br><br>Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amanonu qəbul etmişdir.<br><br>Koreya Respublikasının Beynəlxalq Sərgilər Bürosunda nümayəndəsi, səfir Cai-Çul Çoyun başçılıq etdiyi Beynəlxalq Sərgilər Bürosunun nümayəndə heyətini qəbul etmişdir. |
| ***19 aprel 2018*** | Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı (SACEUR) Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| ***20 aprel 2018*** | Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olmuşdur. |

| | |
|---|---|
| ***23 aprel 2018*** | Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkini qəbul etmişdir. |
| ***24 aprel 2018*** | Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul etmişdir. |
| ***24-25 aprel 2018*** | **Türkiyə Respublikasına rəsmi səfər etmişdir.**<br><br>***24 aprel 2018***<br>Ankaradakı Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət e<br><br>AnkaradaTürkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə şam etmişdir.<br><br>***25 aprel 2018***<br>Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə - Anıtqəbiri ziyarət etmişdir.<br><br>AnkaradaTürkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman ilə görüşü olmuşdur.<br><br>Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.<br><br>Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatlarla çıxış etmişdir.<br><br>Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasında çıxış etmişdir.<br><br>Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından şərəfinə verilən rəsmi naharda iştirak etmişdir. |
| ***26 aprel 2018*** | **Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfər etmişdir.**<br><br>***26 aprel 2018***<br>Londonda "bp" şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşü olmuşdur.<br><br>Londonda Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycan ilə dostluq qrupunun sədri Bob Bləkmən, Lordlar Palatasının üzvü, Azərbaycanın Leyborist dostları qrupunun sədri Lord Devid Evans və İcmalar Palatasının üzvü, Şimali İrlandiya üzrə dövlət nazirinin müavini Devid Morris ilə birgə görüşü olmuşdur.<br><br>Londonda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan ilə görüşü olmuşdur.<br><br>Londonda Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə dövlət naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed ilə görüşü olmuşdur.<br><br>Londonda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olmuşdur. |
| ***27 aprel 2018*** | Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolaini qəbul etmişdir. |

| | |
|---|---|
| ***29 aprel 2018*** | Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - Azərbaycan Qran-Prisinin əsas yarışına baxmışdır.<br><br>Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul etmişdir. |
| ***30 aprel 2018*** | Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş “Tufan” tipli sərhəd gözətçi gəmisi ilə tanış olmuşdur. |
| ***4 may 2018*** | Xaçmaz və Xızı rayonlarına səfər etmişdir.<br><br>Xaçmaz şəhərinin mərkəzində ucaldılmış ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir.<br><br>Xaçmaza səfəri çərçivəsində Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak etmişdir.<br><br>“Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının açılışında iştirak etmişdir.<br><br>Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində və “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının açılışında iştirak etmişdir.<br><br>Xaçmaz-Xudat avtomobil yolunun açılışında iştirak etmişdir.<br><br>Xızı şəhərinin mərkəzindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir.<br><br>Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.<br><br>Başlanğıcını Giləzi-Xızı yolunun 34-cü kilometrliyindən götürən və əsaslı şəkildə yenidən qurulan Fındığan kəndinədək olan yolun açılışında iştirak etmişdir. |
| ***7 may 2018*** | Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışında iştirak etmişdir.<br><br>Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir. |
| ***9 may 2018*** | 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak etmişdir.<br><br>Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santiaqo Qarsia Milanı qəbul etmişdir.<br><br>“DP World” şirkətinin prezidenti Sultan Əhməd bin Sulaimi qəbul etmişdir. |
| ***10 may 2018*** | Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmişdir.<br><br>Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak etmişdir.<br><br>Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir. |
| ***11 may 2018*** | Bakıda Dinamo otelinin açılışında iştirak etmişdir. |

| | |
|---|---|
| ***14 may 2018*** | Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak etmişdir. |
| ***15 may 2018*** | Bakıda Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binasının açılışında iştirak etmişdir.<br><br>Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul etmişdir. |
| ***16 may 2018*** | Naxçıvan Muxtar Respublikasına səfər etmişdir.<br><br>“Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin birinci mərhələsinin açılışında iştirak etmişdir.<br><br>Ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət etmişdir.<br><br>Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında nitq söyləmişdir.<br><br>Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak etmişdir.<br><br>Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 6 saylı tam orta məktəbin açılışında iştirak etmişdir.<br><br>Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olmuşdur.<br><br>Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun “N” saylı hərbi hissəsindəki Təlim-Tədris Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.<br><br>Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olmuşdur. |
| ***18 may 2018*** | Bakıda Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışında iştirak etmişdir. |
| ***21 may 2018*** | Beynəlxalq Əmək Təşkilatının baş direktoru Qay Rayderin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Azərbaycana rəsmi səfər gələn Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə təkbətək görüşü olmuşdur.<br><br>Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.<br><br>Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə mətbuata bəyanatlarla çıxış etmişdir.<br><br>Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin şərəfinə rəsmi ziyafət vermişdir. |
| ***22 may 2018*** | Bakının Suraxanı rayonunda “ATEF Şirkətlər Qrupu”nun yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışında iştirak etmişdir. |